# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 114**

**Bakı şəhəri, 26 aprel 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında torpaqların yeni normativ qiymətinin müəyyən edilməsi haqqında" 1998-ci il 23 iyul tarixli 158 nömrəli, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə bağlı bəzi normativ hüquqi aktlar haqqında" 2000-ci il 15 mart tarixli 42 nömrəli, "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısının təsdiq edilməsi haqqında" 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli, "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nın təsdiq edilməsi haqqında" 2015-ci il 3 iyun tarixli 211 nömrəli, "Məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələrinin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 24 fevral tarixli 65 nömrəli və "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 23 iyul tarixli 158 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 7, maddə 477; 2005, № 8, maddə 782; 2007, № 7, maddə 741; 2008, № 6, maddələr 582, 584, 586; 2010, № 6, maddə 566; 2015, № 11, maddə 1409) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında torpaqların normativ qiymətinin müəyyən edilməsi barədə Əsasnamə"nin 3-cü hissəsinin birinci cümləsində və 4-cü hissəsinin birinci abzasında "girov" sözü "ipoteka" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 mart tarixli 42 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 231, № 5, maddə 360; 2001, № 2, maddə 116; 2002, № 7, maddə 455; 2004, № 9, maddə 741; 2005, № 1, maddə 49, № 12, maddə 1228; 2006, № 9, maddə 822, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 314, № 5, maddə 432; 2009, № 2, maddə 152; 2010, № 8, maddə 765; 2013, № 6, maddə 767; 2015, № 11, maddə 1418; 2018, № 8, maddə 1813; 2019, № 6, maddə 1157) ilə təsdiq edilmiş "Örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi Qaydaları"nın 28-ci hissəsində "girov" sözü "ipoteka" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869; 2007, № 1, maddə 45, № 3, maddə 312, № 10, maddə 1021; 2008, № 2, maddə 116; 2009, № 6, maddə 491, № 10, maddə 846, № 12, maddə 1061; 2010, № 3, maddə 264, № 4, maddə 359, № 7, maddə 702, № 12, maddə 1122; 2014, № 3, maddə 321, № 10, maddə 1322; 2015, № 4, maddə 474; 2016, № 2 (II kitab), maddə 366, № 3, maddə 610, № 5, maddə 951, № 8, maddə 1431, № 9, maddə 1555, № 11, maddə 1955; 2017, № 1, maddə 131, № 3, maddə 510, № 8, maddə 1617, № 12 II kitab), maddə 2504; 2018, № 6, maddə 1377, № 7 (II kitab), maddə 1630, № 8, maddə 1809, № 11, maddə 2428, № 12 (II kitab), maddələr 2735, 2738; 2019, № 1, maddə 157, № 9, maddə 1564; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 4 yanvar tarixli 1 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 6-cı hissəsində "və torpaq" sözləri ", o cümlədən torpaq" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 784; 2016, № 3, maddə 616, № 4, maddə 775; 2017, № 9, maddə 1727; 2018, № 6, maddə 1371) ilə təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"na 2 nömrəli əlavə - "Hesabat verilməyən hesabların siyahısı"nın 5.3-cü bəndində "girovla" sözü "ipoteka ilə" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 fevral tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 318) ilə təsdiq edilmiş "Məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələrinin verilməsi Qaydası"nın 3.3-cü bəndində "girov" sözü "ipoteka" sözü ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273; № 11, maddələr 1403, 1408; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 dekabr tarixli 485 nömrəli, 14 dekabr tarixli 494 nömrəli və 2021-ci il 16 fevral tarixli 38 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə"nin 1.4.1.7-ci yarımbəndinin ikinci cümləsində "torpaq" sözündən əvvəl "o cümlədən" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***